



# Səsi tarix olan sənətkar

## Arif Babayevin izi heç vaxt silinməyəcək

**Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Musiqimizin böyük sənətkarı Arif Babayev dünyasını dəyişib. Bu xəbər yalnız sənət cameəsini deyil, onun səsini sevən minlərlə insanı dərindən sarsıdıb. Arif müəllim sadəcə xanəndə deyildi, o, həm də muğamı sevdirən, onu başa salan, yaşadan şəxsiyyətlərdən biri idi. Onun səsi çoxumuza uşaq vaxtımızdan tanış idi.**

Televizordan, radiodan eşidilən o sakit, kövrək, amma güclü səs yaddaşımıza hopmuşdu. O oxuyanda hər şey bir anlıq dayanırdı. Sanki sözlərə nəfəs verirdi. Dinləyənlər üçün bu təkcə musiqi deyil, bir duyğu, bir dərindən gələn səssiz danışıq idi. Uzun illərdir səhnədə olan A.Babayev muğam məktəbinin formalaşmasında böyük rol oynayıb, yüzlərlə tələbə yetişdirib.

Uzun illər Azərbaycan Milli Konservatoriyasında dərs deyən Arif müəllim tələbələrinə yalnız muğamı öyrətməyib, həm də səhnə mədəniyyətini, sənətə münasibəti aşılayıb. Onun yetişdirdiyi ifaçılar bu gün Azərbaycanın müxtəlif səhnələrində çıxış edirlər və hər biri Arif müəllimin adını böyük ehtiramla çəkir.

Muğam sənətinin canlı əfsanəsi, təkcə bir dövrün deyil, bütöv bir nəslin qürur mənbəyi olan Arif Babayev bu dünyaya səsiylə möhür vurub. O, səsi ilə təkcə notların deyil, sözlərin də sirrini bilirdi. Muğam onun dilində nəinki səslənirdi, həm də danışırdı, ağlayırdı.

Arif Babayevin sənəti təkcə səhnə ilə məhdudlaşmırdı. O, məktəb idi! Səsin poeziyası idi. Hər bir səsi bir bənd, hər bir guşəni bir misra kimi oxuyurdu. O danışanda, muğam danışırdı. O oxuyanda, tarix danışırdı. Onun səsi təkcə musiqi deyil, həm də yaddaş idi, bəli, milli yaddaş.

Qeyd edək ki, avqustun 1-də Beynəlxalq Muğam Mərkəzində Xalq artisti, muğam sənətinin görkəmli nümayəndəsi Arif Babayevlə vida mərasimi keçirilib. Mərhumun cənazəsi Beynəlxalq Muğam Mərkəzinin matəmsayağı bəzədilmiş səhnəsində postament üzərinə qoyulub. Postamentin ətrafına Azərbaycan Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva, dövlət və hökumət təşkilatları adından əklil düzülüb. Muğam sənətinin görkəmli nümayəndəsi Arif Babayevin həmkarları, dostları, tanınmış mədəniyyət, incəsənət və elm xadimləri, deputatlar, mərhumun sənətinin pərəstişkarları Muğam Mərkəzinin binasına gələrək, unudulmaz sənətkara son borclarını veriblər.

Xalq artisti Arif Babayevin cənazəsi Beynəlxalq Muğam Mərkəzinin binasından qaldırılaraq I Fəxri xiyabana gətirilib. Burada mərhumun ruhuna dualar oxunub. Əziz xatirəsi xalqımızın qəlbində yaşayacaq böyük sənətkar Arif Babayevin cənazəsi doğma torpağa tapşırılıb. Məzarı üzərinə əklillər, gül dəstələri düzülüb.

### Muğam ustadına Prezident və birinci vitse-prezidentin ehtiram dolu münasibəti

**Prezident İlham Əliyev Xalq artisti Arif Babayevin vəfatı ilə bağlı nekroloq imzalayıb.** Nekroloqda bildirilib ki, milli muğam sənətinin görkəmli nümayəndəsi, Xalq artisti, Heydər Əliyev Mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Azərbaycan Milli Konservatoriyasının professoru Arif İmran oğlu Babayev 2025-ci il avqustun 1-də ömrünün 88-ci ilində vəfat edib. Arif Babayev 1938-ci il fevralın 20-də Ağdam rayonunun Sarıhacılı kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra o, 1962-1968-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunda ali təhsil alıb.

Əmək fəaliyyətinə hələ tələbə ikən - 1966-cı ildə Azərbaycan Dövlət Opera və Balet Teatrında solist olaraq başlayan Arif Babayev 1981-ci ildən Bülbül adına orta ixtisas musiqi məktəbində müəllim işləyib, 1984-2000-ci illərdə indiki Bakı Musiqi Akademiyasında muğam ixtisası üzrə dərs deyib, 2002-ci ildən ömrünün sonunadək Azərbaycan Milli Konservatoriyasında professor və kafedra müdiri vəzifələrində çalışıb. Qarabağ xanəndəlik məktəbinin parlaq simalarından olan Arif Babayev Azərbaycanın musiqi mədəniyyəti xəzinəsinə dəyərli töhfələr verib. O, sələflərinin sənət ənənələrini yaradıcılıqla davam etdirərək, özünəməxsus ifaçılıq dəstxətti formalaşdırıb və bütün fəaliyyəti ərzində muğamın klassik ifa tərzinin qorunub saxlanmasında təqdirəlayiq xidmətlər göstərib. Məlahətli və zəngin çalarlı səs tembrinə malik sənətkar milli muğam sənətinin vokal formasına yeni nəfəs gətirməklə dinləyicilərin məhəbbətini qazanıb. Arif Babayevin yüksək məharətlə ifa etdiyi "Qarabağ şikəstəsi", "Segah", "Çahargah", "Rast", "Şur", "Bayatı-Şiraz" və digər muğamlar milli muğam sənətinin qızıl fonduna daxil olaraq Azərbaycanın musiqi sərvətləri xəzinəsini daha da zənginləşdirib. Xanəndənin xüsusi zövq və ustalıqla oxuduğu təsniflər və xalq mahnıları Azərbaycanın musiqi mədəniyyəti inciləri sırasında layiqli yer tutur. Arif Babayev uzun illər muğam operalarında əsas partiyaların ifaçısı kimi canlandırdığı yaddaqalan obrazlarla musiqi salnaməmizdə dərin iz qoyub. Onun dahi bəstəkar Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" əsərində yaratdığı Məcnun obrazı opera tariximizdəki ən unudulmaz ifalardandır. Arif Babayev dünyanın müxtəlif ölkələrinə qastrol səfərləri zamanı Azərbaycan mədəniyyəti günlərində və beynəlxalq musiqi festivallarında milli mədəniyyətimizi uğurla təmsil edib, çıxışları ilə musiqimizi müxtəlif xalqların nümayəndələrinə sevdirməyi bacarıb. Uzun müddət pedaqoji fəaliyyət göstərən ustad xanəndə keçdiyi həyat və sənət yolu ilə örnək olub, ifaçıların bir neçə nəslinin mənsub olduğu böyük məktəb yaradıb. Muğamla bağlı gerçəkləşdirilən layihə və proqramlarda yaxından iştirakı Arif Babayevin ölkədə muğam ifaçılığı ənənələrinin yaşadılması istiqamətində apardığı səmərəli işlərlə vəhdət təşkil edirdi. Arif Babayev milli musiqi mədəniyyətinin inkişafı sahəsində qazandığı mühüm nailiyyətlərinə görə 1998-ci ildə Azərbaycan Respublikasının ali mükafatlarından olan "Şöhrət", 2008-ci ildə "İstiqlal" və 2018-ci ildə "Şərəf" ordenləri, 2023-cü ildə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" və 2025-ci ildə Heydər Əliyev Mükafatı ilə təltif edilib.

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Xalq artisti Arif Babayevin vəfatı ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edi:**

Azərbaycan muğam sənətinin görkəmli nümayəndəsi Arif Babayevin vəfatı mədəniyyətimiz, bütün xalqımız üçün əvəzsiz itkidir. O, yaşından asılı olmayaraq hər kəsin sevdiyi əsl Xalq artisti idi. Onun məharətlə ifa etdiyi muğamlar milli musiqi irsimizi daha da zənginləşdirib. Arif Babayevin xoş, nurlu xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq. Allah rəhmət eləsin".

### Xalq artisti Arif Babayevin son səfərində sənət aləmi yasa büründü

**Mərhumun vida mərasimində iştirak edən mədəniyyət naziri Adil Kərimli jurnalistlərə açıqlamasında Arif Babayevin zəngin həyat və yaradıcılıq yolundan danışıb.** O, böyük sənətkarın Azərbaycan muğam məktəbinin inkişafında və tanıdılmasında göstərdiyi misilsiz xidmətləri vurğulayıb. Bildirib ki, Arif Babayevin ifası və sənətə olan yanaşması nəinki milli musiqimizə, ümumən mənəviyyatımızda dərin izlər buraxıb. Nazir qeyd edib ki, Arif Babayev öz sənəti ilə sadəcə muğamı deyil, bütöv bir musiqi fəlsəfəsini yaşadıb. Onun muğama gətirdiyi yeniliklər və ən əsası da tələbələrə ötürdüyü ustadlıq dərsləri bu gün muğam sənətimizin əsas dayaqlarından birinə çevrilib: "Arif Babayevin itkisi bizim üçün çox ağırdır, amma yaratdığı irs, yetişdirdiyi tələbələr və könüllərdə qoyduğu izlər onu daim yaşadacaq". Azərbaycan Milli Konservatoriyasının rektoru Kamilə Dadaşzadə də Arif Babayevin milli musiqi mədəniyyətimizin inkişafında oynadığı əvəzsiz roldan, onun böyük ustad kimi gənc ifaçılar nəslinin yetişməsindəki misilsiz xidmətlərindən danışıb. O, Arif müəllimin sənət irsinin konservatoriyada və ümumilikdə Azərbaycan musiqisində daim yaşadılacağını vurğulayıb. Arif Babayevin Azərbaycan muğam sənətinə bəxş etdiyi böyük töhfələrdən danışan Xalq artisti Mənsum İbrahimov bildirib ki, o, yalnız görkəmli ifaçı deyil, həm də əsl ustad, sənət məktəbi yaradan, neçə-neçə sənətkarın yolunu işıqlandıran şəxsiyyət idi. Mənsum İbrahimov vurğulayıb ki, Arif Babayevin yaratdığı sənət irsi tükənməz xəzinədir və o, öz ifaları, yetirmələri və insani keyfiyyətləri ilə hər zaman xatırlanacaq. Xalq artisti Vamiq Məmmədəliyev dərin kədərini ifadə edərək deyib: "Bu gün danışmaq çox ağırdır. Arif Babayev mənim yaxın dostum idi. Biz bir yerdə çox çörək kəsmişik, uzun illər çiyin-çiyinə işləmişik. Onunla aramızda böyük səmimiyyət, dostluq və sənət bağları var idi. Arif müəllim Xan Şuşinski məktəbinin layiqli davamçısı idi. Bu sənəti yaşatmaq, onu gələcək nəsillərə ötürmək asan deyil - o, bu çətin və şərəfli missiyanı böyük məsuliyyətlə yerinə yetirirdi".




**Xalq artistinin oğlu Yaşar Babayev isə belə deyib:**

"Atam bu dünyadan xoşbəxt getdi. Ömrünün son günlərində ona göstərilən sonsuz sevgi, diqqət və qayğı Arif Babayev üçün böyük mənəvi dayaq oldu. O, xalqının sevgisini hiss edərək, əzizlərini, doğmalarını, dostlarını, tələbələrini ətrafında görərək bu dünyaya vida etdi".

### Sənətkarın gülərüz şəxsiyyəti və unudulmaz xatirələri

**Deputat Aqil Abbas muğam sənətinin görkəmli nümayəndəsi Arif Babayevin vəfatı ilə bağlı bildirib ki, ustad sənətkar onun yaxın dostu olub və xəstəliyinin ağırlaşdığını son görüşlərindən hiss edib:** "Arif müəllim muğamın ağsaqqalı, karifeyi idi. Yaxın dost olmuşuq. Srağagün xəstəxanaya getmişdim, elə onda başa düşdüm ki, vəziyyəti yaxşı deyil. Allah rəhmət eləsin Onun zəngin irsi var, bu irs daim yaşayacaq". Aqil Abbas Arif Babayevin Ağdamda yerləşən evinin də tezliklə bərpa ediləcəyini qeyd edib: "Arif müəllimin evi Ağdamda, Xıdırlı kəndində idi. Həmin kənd şəhərə bitişikdir. İndi Xıdırlı bərpa olunur. Arif müəllimin evi də yaxın zamanda tikilib bərpa ediləcək. Yəqin ki, orada onun adına bir muzey də yaradılar". Millət vəkili bildirib ki, Arif Babayevlə illərlə davam edən dostluğu dövründə bir çox unudulmaz xatirələr yaşayıb. Sənətkarın son zamanlar səhhətindəki problemləri nəzərə alaraq, onu narahat etmək istəmədiyini də vurğulayıb: "Onunla çox söhbətim, xatirəm var. Son vaxtlar xəstə idi, zəng edib incitmək istəmirdim. Amma qardaşı Akif Babayevlə tez-tez danışırdım. Xəstəxanada olanda da əlaqə saxlayırdıq". **Arif Babayevin şəxsi keyfiyyətlərini də yüksək dəyərləndirən Aqil Abbas onun hazırcavab, gülərüz və yumor hissi güclü insan olduğunu deyib. Bu xüsusda maraqlı bir xatirəsini də bölüşüb:**

"Arif Babayev çox gülərüz, hazırcavab, yumorlu adam idi. Bir dəfə ondan soruşdum ki, cavan müğənnilərin hərəsinin yanında 5-6 cangüdəni var. Amma nə sən, nə də Alim Qasımovun ətrafında cangüdən yoxdur. Halbuki siz də imkanlı adamlarsınız. Dedi: "Biz oxuyuruq, kimin bizimlə nə işi var? Amma onlar oxuya bilmir, qorxurlar ki, kimsə onları görəndə üstünə çığıra". Aqil Abbas açıqlamasının sonunda Arif Babayevin Azərbaycan musiqi sənətindəki əvəzolunmaz rolunu vurğulayıb və onun adının gələcək nəsillər tərəfindən də daim hörmətlə anılacağına əminliyini ifadə edib.

### Muğam ustadının zəngin irsi əbədi yaşayacaq

**Əməkdar artist Gülüstan Əliyeva isə xanəndəni "Azərbaycan mədəniyyətinə çox böyük itki üz verib.** Azərbaycan muğamının sütunu, müəllimim, ustadım, muğam ifaçılığında çox böyük məktəbin yaradıcısı, yüzlərlə sənətkarları sənət dünyasına bəxş edən Arif Babayev... Ailəsinə, doğmalarına, yaxınlarına başsağlığı verirəm" sözləri ilə yad edib.

**Əməkdar artist Aybəniz Haşımova onunla bağlı "Arif müəllim sənətkarların ustadı, ürəklərin səsi idi...** Bu gün qəlbimizdən bir parça qopdu. Ustad xanəndə, muğam sənətinin canlı məktəbi, yüzlərlə tələbənin müəllimi, minlərlə dinləyicinin qəlbində iz qoyan Arif Babayev haqq dünyasına qovuşdu. Səsi ilə bizə muğamın sirrini, öyrətdikləri ilə sənətə sədaqəti anlatdı. Ən çətin anlarımızda onun oxuduğu muğamlar könlümüzə şəfa, ruhumuza güc verdi. Bu gün isə o səs susdu... "Segah"ın atası getdi, bülbül avazlı ustadımız getdi... Arif müəllim, ruhun şad olsun. Yolun rahat olsun, ustad. Biz səni heç zaman unutmayacağıq" sözlərini qeyd edib.

**Millət vəkili Göydəniz Qəhrəmanov isə xalq artisti ilə bağlı paylaşımında Arif Babayevin Azərbaycan musiqi mədəniyyətinin əvəzsiz simalarından biri olduğunu qeyd edib:**

"Muğam sənətimizin canlı əfsanəsi, Azərbaycan musiqi mədəniyyətinin əvəzsiz simalarından biri, Xalq artisti Arif Babayevin dünyasını dəyişməsi xəbərini dərin kədərlə öyrəndim". G.Qəhrəmanov Arif Babayevin təkcə səsləndirdiyi muğamlarla deyil, həm də yaratdığı məktəblə, yetişdirdiyi tələbələrlə milli musiqi irsimizin qorunmasına və gələcək nəsillərə ötürülməsinə misilsiz töhfələr verdiyini vurğulayıb: "Arif Babayevin əziz xatirəsi daim qəlbimizdə yaşayacaq".

### Arif Babayev muğam sənətinin misilsiz ustadı idi...

**Əməkdar artist Gülyanaq Məmmədova:** "Arif müəllim bütün xanəndələrin ustadıdır. Biz oxumağı, səhnədə olmağı onlardan öyrənmişik, indi də çalışırıq ki, onlardan öyrəndiklərimizi gələcək nəslə ötürək. Arif Babayev sənəti ilə, ifası ilə, Məcnun rolu ilə ürəklərimizdə dərin iz qoyan sənətkar olub. Onun səhnədə yaratdığı hər bir ifa bir dərs idi, bir məktəb idi. Təəssüf ki, Türkmənistanda olduğum üçün dəfnində iştirak edə bilmədim. Amma mən harada olmuşamsa, Arif müəllimin adını həmişə şərəflə çəkmişəm, onu ustadımız kimi təqdim etmişəm.

Fərqi yoxdur, onun qarşısında oturub-oturmamağın - bütün məclislərimizdə Arif Babayev süfrəmizin başında olub. O, böyük-kiçik tanımadan hamını sayıb, hər kəsə hörmət edib. Gülyazla məni heç vaxt öz tələbələrindən ayırmayıb. Tələbələri ilə çəkilişlər edəndə bizi də həmişə çağırıb. Arif Babayevin vəfatı mədəniyyətimiz üçün böyük itkidir. Həyat belədir - bir gün gələn, bir gün gedir. Amma insan bu dünyadan gedəndə Arif müəllim kimi adlı-sanlı, şöhrətli-şanlı iz qoymalıdır. Bizim üçün o, həmişə yaşayacaq".

**Millət vəkili Bahar Muradova da hər kəs kimi professor Arif Babayevin vəfat xəbərini dərin kədər və üzüntü ilə qarşıladığını deyib:**

"Azərbaycan muğam sənətinin inkişafında misilsiz xidmətləri olan ustad xanəndəmiz həm də Qarabağ məktəbinə sadiqliyi ilə seçilən böyük sənətkar idi. Onun nadir ifaçılıq məharəti, bənzərsiz səsi və sənətə verdiyi töhfələr musiqi tariximizdə əbədi qalacaq. O, həm də neçə-neçə gənc istedadın yetişməsində müstəsna rolu olan peşəkar müəllim idi.

Ən böyük arzusu torpaqlarımızın işğaldan azad edilməsi, Qarabağa və doğma Ağdamına qayıtmaq olan Ustadımızın əziz xatirəsi onu sevənlərin qəlbində daim yaşayacaq, onun sənəti nəsillərdən-nəsillərə ötürüləcəkdir. Arif Babayevin ailəsinə, yaxınlarına və Azərbaycan mədəniyyət ictimaiyyətinə dərin hüznlə başsağlığı verirəm!".

**Şəymən Bayramova**

**P.S. "Şərq" qəzeti kollektivi olaraq Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsi, Xalq artisti, əvəzolunmaz sənətkar Arif Babayevin vəfatı xəbərini dərin kədər və üzüntü ilə qarşıladıq. Arif Babayev sənətə olan misilsiz töhfələri, milli musiqimizin inkişafına verdiyi xidmətləri və gənc nəsil ifaçılara örnək olan mənəvi irsi ilə yaddaşlarda əbədi yaşayacaq. Mərhumun ailəsinə, yaxınlarına və bütün sənətsevərlərə dərin hüznlə başsağlığı verir, səbir diləyirik!**